**“Promoting Rural Women’s Participation in the Economic and Social Life - Neftchala”**
**PROJECT STEERING COMMITTEE MEETING**
**MINUTES**

**Date:** 24 June 2015

**Location:** The State Committee for Family, Women and Children’s Affairs (SCFWCA), Baku

**Attendance:**

1. Sadagat Gahramanova, Deputy Chair, SCFWCA
2. Nato Alhazishvili, Deputy Resident Representative, UNDP
3. Leyla Fathi, Programme Associate, UNDP
4. Sabina Manafova, Head of International Relations and Protocol Service Department, SCFWCA
5. Sabina Talishinskaya, Deputy Head of Gender Issues and Women’s Problems Department, SCFWCA
6. Nadir Guluzadeh, Project Manager, UNDP

The meeting commenced with the agreed agenda, as outlined below:

1. Greeting notes by Ms. Sadagat Gahramanova, Deputy Chair, SCFWCA, and Ms. Nato Alhazishvili, DRR, UNDP
2. Update on project progress
3. Outstanding issues:
   - Registration of Neftchala WRC as NGO
   - Training on gender programming for the staff of SCFWCA and Neftchala Regional Executive Authority
   - Discussion of UNDP proposals to USAID and EU

1. The meeting commenced with Nato Alhazishvili’s greeting notes. She thanked the SCFWCA management for their continued interest in and support for the project. She noted that the Sabirabad component was completed successfully in 2014 and this year the project continued in Neftchala with the support from Coca-Cola Foundation. UNDP highly values this project and therefore pursues additional funding sources to ensure the continuation and expansion of the project in other regions of Azerbaijan. If the State Committee could allocate any co-funding of the project (e.g. for WRC staff salaries), it would highly benefit the project both in terms of its sustainability and improved fundraising.

2. Sadagat Gahramanova confirmed the State Committee’s interest in the project and expressed her satisfaction with the project results in Sabirabad and Neftchala. SCFWCA is interested in more active engagement of rural women in economic and social lives of their families and communities in order to minimize their dependence on government support and stimulate stronger economic performance. In Neftchala, she was happy to observe that women wanted to engage socially through not only the WRC but also their newly proposed businesses (Fitness Centre and Women Café). SCFWCA also considers the state registration of WRC a top priority. SCFWCA is in the process of budgeting for the next fiscal period, where they will consider

support to WRCs. If WRC is registered as NGO, the State Committee will support WRC grant proposals to the Council on State Support to NGOs under the President of Azerbaijan Republic, and other donors. She noted that while the national legislation does not prohibit a state official from engagement in civil activities, SCFWCA will liaise with the Presidential Administration to issue clear instructions pertaining to the state registration of WRCs as NGOs with government officials as founding members. Ms. Gahramanova also highlighted the capacity of Heydar Aliyev Centres in regions to host WRCs as part of national gender policy implementation.

3. Nadir Guluzadeh provided general information on project activities in 2015 and noted that most activities were implemented in accordance with the approved project document. Pending activities for the remaining period of the year were also highlighted.

4. Regarding the training on "Development of policies and programmatic interventions in the area of economic empowerment and community-based activism of women" for the staff of local executive authority of Neftchala and the SCFWCA, it was agreed that the training would take place on 14-15 July 2015 in Surakhani district, Baku. SCFWCA will facilitate the invitation of 20 gender focal points from different ministries, regional executive authorities and municipalities.

5. Regarding the project component on women with disabilities, it was recommended that the project contacts with EBRD's newly established Gender Programme in Baku to discuss possible avenues of funding for the disabled women's proposals.

6. Nato Alhazishvili informed the Project Steering Committee about UNDP's new proposal to USAID on expansion of project activities to Masalli, which was chosen due to UNDP's existing projects in the area. She explained that the project was the combination of two components: one targeting the women's active participation in economic and social life of their communities (similar to the on-going Rural Women project), and the other focusing on youth's professional training and decent employment. She noted that this proposal constituted a substantial revision to the current project document and requested SCFWCA support to facilitate the collaboration with Masalli Regional Executive Authority.

7. Nato Alhazishvili also informed about the newly issued EU Call for Proposals, with total funding of €400,000 and August 12 deadline. The emphasis in EU proposal will be on: a) civil society development through social engagement of women and capacity building of WRCs; and b) promotion of women's economic rights. It was noted that UNDP and SCFWCA should agree on geographic coverage of new project activities, and Project Manager was instructed to liaise with relevant SCFWCA staff on proposal details.

The meeting was closed with the following agreed decisions:

1. SCFWCA will pursue the issue of state registration of Sabirabad and Neftchala WRCs as NGOs by liaising with the Presidential Administration.
2. SCFWCA will consider funding for the Women Resource Centers as part of its budget proposal to the Ministry of Finance for 2016.
3. The training on "Development of policies and programmatic interventions in the area of economic empowerment and community-based activism of women" will take place on 14-15 July 2015. SCFWCA will facilitate the invitation of 20 gender focal points from different ministries, regional executive authorities and municipalities.
4. Project will contact with the EBRD's new Gender Programme to seek additional funding for disabled women's business start-up proposals.

5. The Project Steering Committee agreed on expansion of project activities to Masalli, as funded by USAID. UNDP and SCFWCA agreed to travel to Masalli in July or August in order to meet and establish relations with local authorities.
6. UNDP and SCFWCA will jointly determine the geographic coverage of project activities for the UNDP proposal to EU.

**Prepared by:** Nadir Guluzadeh

**Approved by:**

N. Alhazishvili.

Ms. Nato Alhazishvili
Deputy Resident Representative, UNDP

Ms. Sadagat Gahramanova
Deputy Chair, SCFWCA

"Kənd qadınlarının iqtisadi və sosial həyatda iştirakının təşviq edilməsi – Neftçala"
**LAYİHƏ İDARƏETMƏ ŞURASI İCLASININ PROTOKOLU**

**Tarix:** 24 iyun 2015-ci il

**Yer:** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Bakı

**İştirakçılar:**

1. Sədaqət Qəhrəmanova, Sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
2. Nato Alhazişvili, Rezident nümayəndəsinin müavini, BMTİP
3. Leyla Fathi, Proqram əməkdaşı, BMTİP
4. Səbinə Manafova, Xarici əlaqələr və protokol xidməti şöbəsinin müdiri, Dövlət Komitəsi
5. Səbinə Talışinskaya, Qadın problemləri və gender məsələləri şöbəsinin müdir müavini, Dövlət Komitəsi
6. Nadir Quluzadə, Layihə rəhbəri, BMTİP

Görüş aşağıdakı razılaşdırılmış gündəlik üzrə başlamışdır:

1. Dövlət Komitəsinin Sədr müavini xanım Sədaqət Qəhrəmanova və BMTİP Rezident nümayəndəsinin müavini xanım Nato Alhazişvili tərəfindən salamlama çıxışları
2. Layihənin icraatı haqqında qısa məruzə
3. Qarşıda duran məsələlər:
   - Neftçala QRM-in QHT kimi qeydiyyatı
   - Dövlət Komitəsi və Neftçala rayon icra hakimiyyətinin əməkdaşları üçün gender proqramlaşdırılması məsələləri üzrə təlim
   - BMTİP-in USAİD və Aİ üçün hazırladığı təkliflərin müzakirəsi

1. Görüş Nato Alhazişvilinin salamlama nitqi ilə başladı. O, layihəyə göstərdiyi davamlı maraq və dəstəyə görə Dövlət Komitəsinin rəhbərliyinə öz minnətdarlığını bildirdi. Sabirabad komponentinin 2014-cü ildə uğurla yekunlaşdığını diqqətə çatdıran Nato Alhazişvili müvafiq layihənin bu il Coca-Cola Fondunun dəstəyi ilə Neftçala rayonunda davam etdiyini bildirdi. BMTİP sözügedən layihəni çox yüksək dəyərləndirir və bu səbəbdən də layihənin Azərbaycanın digər rayon və bölgələrində davam etdirilməsi və genişləndirilməsi üçün əlavə maliyyə mənbələri axtarışındadır. Dövlət Komitəsi tərəfindən layihə üçün hər hansı maliyyə vəsaitinin ayrılması (məsələn, QRM əməkdaşlarının əməkhaqqıları üçün) həm dayanıqlıq, həm də kənardan maliyyə vəsaitlərinin cəlb olunması baxımından layihə üçün çox faydalı olardı.

2. Sədaqət Qəhrəmanova Dövlət Komitəsinin layihəyə olan marağını bir daha vurğuladı və layihə çərçivəsində Sabirabad və Neftçala rayonlarında görülmüş işlərdən və əldə edilmiş nəticələrdən məmnun olduğunu bildirdi. Komitə kənd qadınlarının dövlət dəstəyindən asılılığının azaldılması və daha güclü iqtisadi fəaliyyətin stimullaşdırılması məqsədilə onların öz ailələrinin və yaşadığı icmaların iqtisadi və sosial həyatlarında daha fəal iştirakında maraqlıdır. O, Neftçala rayonunda qadınların təkcə QRM vasitəsilə deyil, eyni zamanda, yeni təklif edilmiş biznes layihələri (Sağlamlıq Mərkəzi və Qadın Kafesi) vasitəsilə sosial həyatda daha fəal iştirak

etmək istədiklərini müşahidə etməkdən şad olduğunu bildirdi. Komitə həmçinin QRM-in dövlət qeydiyyatına alınmasını prioritet məsələ hesab edir. Dövlət Komitəsi növbəti maliyyə dövrü üçün büdcə təkliflərini hazırlamaqdadır və burada QRM üçün mümkün dəstək nəzərə alınacaq. QHT kimi qeydiyyatdan keçdiyi təqdirdə Dövlət Komitəsi QRM-in qrantlar üçün Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası və digər donor təşkilatlara müraciətini və təkliflərini dəstəkləyəcəkdir. Xanım Qəhrəmanova qeyd etdi ki, dövlət orqanının rəsmi nümayəndəsinin mülki fəaliyyət ilə məşğul olması milli qanunvericiliklə qadağan olunmasa da, hökumət nümayəndələrinin təsisçi qismində çıxış etdiyi QRM-in QHT kimi dövlət qeydiyyatına alınması ilə bağlı aydın təlimatların verilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına müraciət ediləcək. Sədaqət Qəhrəmanova həmçinin dövlət gender siyasətinin həyata keçirilməsi prosesinin tərkib hissəsi kimi regionlarda fəaliyyət göstərən Heydər Əliyev Mərkəzlərinin QRM-lərin yerləşdirilməsi üçün müvafiq potensiala malik olduğunu vurğuladı.

3. Nadir Quluzadə layihə çərçivəsində 2015-ci il ərzində həyata keçirilən işlər barədə ümumi məlumat verərək əksər tədbirlərin təsdiq edilmiş layihə sənədinə uyğun olaraq icra edildiyini bildirdi. Qarşıdakı dövr üçün nəzərdə tutulan məsələlər barədə də söz açıldı.

4. Neftçala rayon icra hakimiyyəti və Komitə əməkdaşları üçün "Qadınların iqtisadi sahədə səlahiyyətlərinin artırılması və icma əsaslı fəallığı ilə bağlı siyasət və proqram tədbirlərinin hazırlanması" mövzusunda təlimin 2015-ci il iyul ayının 14-15-də Bakının Suraxanı rayonunda təşkili barədə razılıq əldə edildi. Komitə müxtəlif nazirliklərdən, rayon icra hakimiyyətlərindən və bələdiyyələrdən gender məsələləri üzrə 20 nəfər məsul şəxsin iştirakını təmin edəcək.

5. Layihənin əlilliyi olan qadınlar ilə bağlı komponentinə gəldikdə, əlilliyi olan qadınlar ilə bağlı təkliflilərin maliyyələşdirilməsi imkanlarının müzakirəsi məqsədilə layihənin AYİB-nin Bakı şəhərində yeni yaradılmış Gender Proqramına müraciət etməsi razılaşdırıldı.

6. Nato Alhazişvili Layihə İdarəetmə Komitəsinə layihə tədbirlərinin genişləndirilərək Masallı rayonunda həyata keçirilməsi məqsədilə BMTİP-in USAİD təşkilatına yeni təklif ünvanlaması barədə məlumat verdi. Sözügedən rayonun seçilməsi qeyd edilən regionda BMTİP-in layihələrinin artıq mövcud olması ilə əlaqədardır. O, layihənin iki komponentin vəhdətindən ibarət olduğunu vurğuladı: birinci komponent qadınların yaşadıqları icmaların iqtisadi və sosial həyatında fəal iştirakına hədəflənir (hazırda həyata keçirilən Kənd Qadınları layihəsinə bənzər), ikinci komponent isə gənclərin peşəkar təliminə və layiqli məşğulluq məsələlərinə istiqamətlənmişdir. O, qeyd edilən təklif çərçivəsində hazırkı layihə sənədinin yenilənməsinə ehtiyac olduğunu diqqətə çatdırdı və Komitədən Masallı rayon icra hakimiyyəti ilə əməkdaşlıq əlaqələrinin dəstəklənməsini xahiş etdi.

7. Nato Alhazişvili eyni zamanda Aİ tərəfindən ümumi dəyəri 400.000 avro olan layihə təklifinin qəbuluna start verildiyini və təkliflərin təqdim edilməsi üçün son tarixin 12 avqust olduğunu bildirdi. Aİ layihəsi çərçivəsində aşağıdakı məsələlərə diqqət yetiriləcək: a) qadınların sosial iştirakı və QRM-lərin potensialının artırılması vasitəsilə vətəndaş cəmiyyətinin inkişafı; və b) qadınların iqtisadi hüquqlarının təşviqi. BMTİP və Komitənin yeni layihə tədbirlərinin coğrafi əhatə dairəsini razılaşdırmalı olduqları qeyd olundu və təklifin təfərrüatları barədə Komitənin aidiyyəti əməkdaşları ilə əlaqədə olması üçün layihə rəhbərinə müvafiq tapşırıqlar verildi.

Görüş aşağıdaki razılaşdırılmış qərarlar ilə yekunlaşdı:

1. Dövlət Komitəsi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına müraciət etməklə Sabirabad və Neftçala QRM-lərinin QHT kimi dövlət qeydiyyatına alınması məsələsi ilə məşğul olacaqdır.

2. Dövlət Komitəsi 2016-cı il üçün büdcə layihəsi barədə Maliyyə Nazirliyinə təqdim ediləcək təklifdə Qadın Resurs Mərkəzləri üçün maliyyə vasitələrinin ayrılması məsələsini nəzərdən keçirəcək.
3. "Qadınların iqtisadi sahədə səlahiyyətinin artırılması və icma əsaslı fəallığı ilə bağlı siyasət və proqram tədbirlərinin hazırlanması" mövzusunda təlim 2015-ci il iyul ayının 14-15-də təşkil olunacaq. Komitə müxtəlif nazirliklərdən, rayon icra hakimiyyətlərindən və bələdiyyələrdən gender məsələləri üzrə 20 nəfər məsul şəxsin dəvət olunmasını təmin edəcək.
4. Əlilliyi olan qadınların biznesə başlamaq təkliflərinin maliyyələşdirilməsi üçün əlavə mənbələrin axtarılması məqsədilə layihə AYİB-nin yeni Gender Proqramı ilə əlaqə saxlayacaq.
5. Layihə İdarəetmə Şurası USAİD təşkilatının maliyyə dəstəyi ilə layihə tədbirlərinin Masallı rayonunda davam etdirilməsi barədə razılıq verir. Yerli icra hakimiyyəti orqanları ilə görüşmək və əlaqələr yaratmaq məqsədilə BMTİP və Komitə cari ilin iyul və ya avqust aylarında Masallı rayonuna səfər etmək barədə razılığa gəlir.
6. BMTİP və Komitə Aİ-ə təqdim olunacaq layihənin coğrafi əhatə dairəsini birlikdə müəyyən edəcək.

**Hazırladı:** Nadir Quluzadə

**Təsdiq edir:**

N. Alhazishvili

Xanım Nato Alhazişvili
BMTİP Rezident nümayəndəsinin müavini

Xanım Sədaqət Qəhrəmanova
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Sədr müavini